**BUĞDA ƏKİNLƏRİNDƏ BAŞLICA ZƏRƏRVERİCİLƏRİN NÖV TƏRKİBİ**

**Nərmin Əhmədova**

*AR KTN Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu, Gəncə*
*ehmedovanermin992@gmail.com*

Taxılçılıq sahəsi Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə daim diqqət mərkəzində olmuşdur. Həmin dövrdə aqrar sektorda ciddi struktur dəyişiklikləri olsa da, taxılçılıq təsərrüfatı respublikada əkinçiliyin mühüm sahəsi olaraq qalırdı. 1970-1985-ci illərdə dənli bitkilərin əkilib becərilməsi və biçilməsi texnologiyası yaxşılaşdırıldı, taxılçılıqda məhsuldarlıq səviyyəsi 2,3 dəfə artdı. Həmin dövrdə respublikada taxıl əkinlərinin sahəsinin azalmasına baxmayaraq, məhsuldarlığın artması sayəsində istehsalın həcminin dinamik artımı mümkün olmuşdur. Əkin sahəsinin 85 faizindən çoxunu təşkil edən payızlıq buğdanın intensiv sortlarının yetişdirilməsinə başlanıldı, dənli bitkilərin əkilib becərilməsi və biçilməsi texnologiyası yaxşılaşdırıldı. Heydər Əliyev Azərbaycanda taxıl istehsalının strukturunun təkmilləşdirilməsi ilə bağlı məsələyə də diqqət yetirirdi. O, xüsusilə yüksək məhsuldar və tezyetişən, zülalla zəngin olan soya, darı, sorqo kimi bitkilərin, qarğıdalı dəni istehsalının artırılması və digər istiqamətlərdə müvafiq tədbirlər görmüşdür. Dənli taxıl bitkiləri, xüsusən buğda kənd təsərrüfatı məhsulları bazarının əsas tənzimləyicisi hesab olunur. Buğda dünyada əkin sahəsinə görə birinci yeri tutur. Yer kürəsində əhalinin təqribən 70%-i buğda ilə qidalanır. Buğda (*Triticum* L.) taxılkimilər ailəsinə (Gramineae) mənsubdur. Cəmi 22 növü vardır, bu növlərdən ən geniş yayılan bərk (*Triticum durum* L.) və yumşaq (*Triticum aestivum* L.) buğdadır. Buğda sahələrindən bol və keyfiyyətli məhsul əldə etmək üçün əkinlərdə mövcud olan müxtəlif xəstəlik və zərərvericilərdən qorunması mühüm əhəmiyyət kəsb edir.

Gəncə-Daşkəsən iqtisadi rayonu şəraitində aparılan tədqiqatlar zamanı buğda əkinlərində 6 növ zərərverici – Zəlicik (*Oulema melanopus* L.), ziyankar bağacıq (*Eurygaster integriceps* Put), adi taxıl mənənəsi (*Toxoptera graminum* Rand), boz taxıl sovkası (*Apamea anceps* Schiff), Hessen milçəyi (*Mayetiola destructor* Say.) və taxıl böcəyi (*Zabrus tenebrioides* Goeze.) aşkar edilmişdir. Bu zərərvericilərdən boz taxıl sovkası və taxıl böcəyi bitkinin yeraltı orqanlarında, digər zərərvericilər isə bitkinin yerüstü orqanlarında zərərvericilik edir. Bu zərərvericilərdən başlıca zərərverici olaraq Zəliciyi (*Oulema melanopus* L.) müəyyən etdik və zəliciyin buğda bitkisində zədələnmə faizi, zədələnmə dərəcəsi və zədələnmə intensivliyinin orta balını hesabladıq (Cədvəl 1).

**Cədvəl 1**

Zəliciyin buğda bitkisində zədələnmə faizi, zədələnmə intensivliyinin orta balı və zədələnmə dərəcəsi

| Tarix | Bitkilərin sayı | Zədələnmə faizi | Zədələnmə intensivliyinin orta balı | Zədələnmə dərəcəsi |
|---|---|---|---|---|
| 17.04.2023 | 100 | 6% | 0,06 | 1,2% |
| 28.04.2023 | 100 | 12% | 0,29 | 5,8% |
| 05.05.2023 | 100 | 15% | 0,36 | 7,2% |
| 12.05.2023 | 100 | 17% | 0,41 | 8,2% |
| 22.05.2023 | 100 | 18% | 0,53 | 10,6% |
| 05.06.2023 | 100 | 21% | 0,7 | 14% |

Zəlicik (*Oulema melanopus* L.): Yetkin böcəyin uzunluğu 4-6 mm, rəngi yaşılımtıl-göy, ayaqları sarımtıl-qırmızı rənglidir. Yumurtaları ovalvari olub, sarımtıl rəngdədir. Sürfəsi açıq-sarımtıl rəngli, üzəri seliklə örtülüdür. Zərərvericinin həm yetkin fərdi, həm də sürfəsi bitkinin yarpaqları ilə qidalanır. Əsasən zərər sürfələr tərəfindən vurulur. Yetkin fərd ilə yarpaqların zədələnməsi zamanı yarpaqlar üzərində uzununa deşiklər əmələ gəlir. Sürfələr isə yarpaq epidermisinin bir tərəfini yeyərək, yarpaqların skeletləşməsinə səbəb olur. Bir dişi fərd ömrü boyu 200-ə qədər yumurta qoyur. Yumurtalarını yarpaq üzərinə 4-7 ədəd olmaqla qoyur. 10-12 gündən sonra yumurtadan sarımtıl rəngli sürfələr çıxır. Zəlicik yetkin halda torpağın yarıqları arasında qışlayır. İldə 1 nəsil verir.